# Təbiət anadan həyat dərsləri

**GÜLŞƏN ADIŞOVA**

**BDU-nun Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə I kurs tələbəsi**

Bir yaz səhəri idi. Qüdrətli çinarın qol-qanadını yanına salan tufandan sonra təbiət qəm dəryasına qərq olmuşdu. Sanki bütün ağaclar gələcəkdən ümidlərini üzüb, gözlərindən acı-acı yaş axıdırdı. Ağacların göz yaşları yarpaqların arasından narın-narın aşağı süzülərkən külək onları yırğalayır, dedikləri ağılar eşidilirdi. Amma yarpaqlar yırğalanarkən yüksələn bu ağını hər kəs anlaya bilməzdi... Meşədəki zülmət qaranlıq yuvasından boylanan kiçik tülkünü qorxudurdu. Həyatında ilk dəfə yağışın şahidi olan ipək xəzli balacanın gözləri meşənin qaranlığında öz parıltısı ilə seçilirdi. Balaca dostumuzdan fərqli olaraq ağacdakı yuvasından boylanan sincab üçün, deyəsən, bu artıq normal hadisə idi. Onun iri və tüklü quyruğu kiçik burnu ilə bərabər gözəlliyinə gözəllik qatırdı. Amma ana olmağa hazırlaşan bu gözəlin də gözlərindən kədər yağırdı. Şiddətli külək yuvasını islatmış, bütün gecə onu narahat etmişdi. Bu gün quşlar da dünənki kimi cəh-cəh vurmurdu. Sanki bu təbiət nəğməkarları da matəm elan etmişdilər. Təbiət ana bu günə musiqisiz başlamışdı. Azad nəğməkarlar çox narahat görünürdülər. Sərçələr, qaranquşlar, qumrular, alabaxtalar, şanapipiklər, qarğalar bu vəziyyətdən çox sarsılmışdılar. Bu sükutu yağış damlaları ilə ağacdələnin taqqıltısından başqa heç nə pozmurdu. Sanki o xoru başlatmaq istəyir, ilk notları səsləndirirdi, amma heç kəs səsinə səs vermirdi. Kədər və iztirablar içərisində olan ağacdələn dimdiyini bir neçə dəfə ağaca vurduqdan sonra bir anlıq bülbülün ona qoşulmasını gözləyir, cavab gəlmədikdə yenə inadla çağırışa davam edirdi.

Bütün təbiəti yasa boğan bu fırtına bir gün əvvəl başlamışdı. Əvvəlcə güclü külək əsərək ağacların qol-budaqlarını yanına salmış, sonra isə yağışla birlikdə onlara divan tutmuşdu. Bütün meşə gecəni qorxu içərisində keçirmişdi. Bu gecə onlar küləyin "musiqi"sini dinləmək məcburiyyətində qalmışdılar. Sanki bu dəhşət heç bitməyəcəkdi. Günəş bir də doğmayacaq, hər kəsin hekayəsi burada bitəcəkdi… Ancaq onlar ümidsizliyə qapılmağın mənasız olduğunu bilmirdilər. Bütün meşə əhli gecənin dəhşətini düşünərək yasa batır, bu günün sabahı olduğunu unudurdu. Onlar özlərini dəhşətli bataqlığın içərisində hiss edirdilər, amma meşənin necə gözəl, təravətli ətir saçdığına diqqət yetirmirdilər. Ağacaların yarpaqlarının tərtəmiz olması onların nəzərlərindən yayınırdı. Günəş yavaş-yavaş öz tellərini ağacların budaqları arasından yerə toxundururdu. Bunları görən balaca tülkü ürkək baxışlarla başını

yuvadan çıxarır, üzərindəki yağış damlaları par-par parıldayan çəmənliyə tamaşa edirdi. Birdən onun gözləri qarşısından böyük ağ rəngli bir "canavar" keçdi. Ani hərəkətdən diksinən balaca geri çəkilərkən ayağı yuvanın kənarındakı yaş budağa ilişdiyi üçün o, beli üstündə yuvaya düşdü. Bir yandan qorxu onu içəridə qalmağa vadar etsə də, gözlərinin qarşısından keçən xəyali "canavar"ı bir də görmək marağı onu çəkib aparırdı. Ürkək addımlarla bayıra çıxan balaca çəmənliyin üzərində uçuşan qara xallı ağ kəpənəkləri gördü. Havada çevrələr cızan bu cütlük balaca tülkünün düz gözlərinin yanından keçdiyinə görə iri və heybətli "canavar" təsiri oyatmışdı. Bunu görən bala tülkü narahatlığının yersiz olduğunu başa düşdü.

Fırtına bitmişdi. Meşə orkestri yenidən fəaliyyətə başlamış, həyat əvvəlki axarına dönmüşdü. Meşə əhli bu fırtınada ümidsizliyə qapılmış, hər şeyin başa çatdığını düşünmüşdü. Onlar bütün pisliklərin, fəlakətlərin sona çatacağını bilmirdilər. Hərdən pis hadisələr olmalıdır ki, yaxşı anlarımızın dəyərini bilək. Əslində həyat elə tam da budur. İnsanlar həyatlarında olan pis hadisələrə o qədər baş qoşurlar ki, yaxşı şeylərin də ola biləcəyini unudurlar. Halbuki həmişə çıxış yolu var və heç bir şey səbəbsiz deyil. Gün içərisində ən qaranlıq an məhz Günəş doğmazdan əvvəlki andır. Hər şeyin bitmək üzrə olduğu an əslində hər şeyin başladığı andır. Göründüyü kimi, həyatın bütün sirləri təbiətdə gizlədilib. Həyatımızda baş verən hadisələri balaca tülkü kimi böyütməməliyik. Onların üstünə getdikcə çox kiçik olduqlarını görəcəyik. Başımıza ən pis hadisələr belə gəlsə, onlar da fırtına kimi bir gün bitəcək və qaranlığı məhv edəcək parlaq bir Günəş doğacaq. Həyatınızda həmin Günəşin doğması diləyi ilə…..